# Qırx sətir

80-ci illərin, deyəsən, ortalarıydı... Yazqabağı... Onda mən Mədəniyyət Nazirliyində işləyirdim. Tez-tez də Moskvada ezamiyyətdə olurdum. Bir dəfə də getdim. "Moskva" mehmanxanasında yer olmadı. Deyəsən o vaxtkı Yuqoslaviyanın mədəniyyət günləriydi… Mərkəzdəki otellər zığ vururdu. Öz gəlmələrini aralıya, daha doğrusu, VDNX ətrafındakı mehmanxanalara göndərirdilər. Mən də "Altay"a düşmüşdüm… Mənimçün heç bir çətinliyi yox idi… Çünki vaxtilə üç il Moskvanın tən ortasında əskərlik çəkmişəm. Demək olar ki, bu şəhərin hər künc-bucağına bələddim… Nə isə… Getdim… Yol yorğunu olasan, Moskvanın basırığı da bir yandan… Səhər tezdən Nazirlikdə olmalıydım… Gərək vaxtında yataydım ki, sabahkı iclasda məni yuxu tutmasın… Gecənin bir aləmi məni yuxudan oyatdılar. Kimsə boğazının qalın yerinə salıb oxuyurdu… Bu uruslarda adətdi də, "ley-peydən sonra" kefləri qalxır, başlayırlar oxumağa…Hələ yaxşı ki, oxuyan təkdi, məclis olsaydı, batardım… Amma məclis bunun yanında qələt eləyir. "Altay"ın qalın divarı belə, qonşu otaqdan gələn səsin qabağını ala bilmirdi… Rus operalarından hansındansa oxuyurdu. Mənbilən, "Yevgeni Onegin"dən idi, ya da "Boris Qodunov"dan… amma zalım uşağı görəsən bilirdimi ki, mənim yuxuma haram qatıb və müsəlmanın da yuxusuna haram qatmaq nədi? (M.Cəlilə min rəhmət!) Durdum, divarı döydüm… Səs o andaca kəsildi, bütün gecəni bir də oxumadı, elə bil mənim divar döyməyimə bəndmiş, qəsdi məni oyatmaqmış. Öz "müqəddəs vəzifəsini" yerinə yetirəndən sonra, yəqin özü indi xorna çəkir, mən də qalmışam aranı dağa, dağı arana daşıya-daşıya… Məni təzədən nə vaxt yuxu aparıb, heç mənsiməmişəm… Səhər qapının döyülməyinə oyandım. Durub açdım "İqor polku" dastanından qopub gəlmiş kimi, saçları çiyninə tökülmüş sarışın bir oğlan idi. Ədəb-ərkanla salam verdi, üzr istədi və məlum oldu ki, qonşu nömrədə yaşayan, gecə məni yatmağa qoymayan bu mərdümazarmış… O danışdı, mən qulaq asdım… Məlum oldu ki, Krasnoyarskdandı, üçüncü dəfədi onu Böyük Teatra çağırırlar, qulaq asırlar, götürmək fikirləri yoxdu… deyirlər - get, baxarıq… Hər dəfə də nə qabağına maşın göndərirlər, nə fərli-başlı, Böyük Teatra yaxın mehmanxana tuturlar… Teatrda "yekələrdən" kimsə yəqin onu burunlayır, yaxına buraxmaq istəmir… Bu dəfə də götürməsələr, - İngiltərədə Kovent-Qarden teatrı vaxtlı-vaxtına müsabiqə keçirir, çalışacağam ora düşüm - dedi. Mənbilən Böyük teatrdakı paxılların ora əlləri çatmaz… Biləndə ki, Bakıdanam, gülümsünüb dedi, - nə bilmək olar, bəlkə elə bir gün Bakıda səhnəyə çıxmaq mənə qismət oldu… Axşam daha Dmitrini görmədim… Aşağıdan dedilər ki, Dmitri çıxıb gedib, özü də yaman dilxoruydu. Başa düşdüm ki, bu dəfə də onu özləri çağırıb, özləri də ona qapını göstəriblər… Üstündən düz ilyarım keçəndən sonra təsadüfən rus qəzetlərinin birində - "Nedelya" idi deyəsən, - oxudum ki, həmin o gecə mənim yuxuma haram qatan oğlan "Kovent-Qarden" müsabiqəsindən keçib… Keçib də sözdü, onu işə götürüblər, onunla beş illik "dünyaya qastrol" müqaviləsi bağlanıb… (Amma Bakıya gəlib çıxmadı). Həqiqətən dünya şöhrəti qazandı. Paris operasında, La Skalada, Metropoliten Operada… dünyanın neçə-neçə məşhur teatrlarında oxudu. Gəl ki, Moskvanın Böyük teatrında oxumadı ki, oxumadı… Daha doğrusu, bircə dəfə solo konsertə çıxdı… Paytaxt tamaşaçısı ilə halallaşmaq xətrinə. Sonuncu konserti isə Krasnoyarskda baş tutdu. Ata-anasına, dost-doğma şəhərinə "əlvida" deməkçin… Yer üzündə təbiblər, loğmanlar qalmadı Dmitri Xvorostovskinin xilası üçün çalışmasın… Amma, kim olursan ol, bəndə nəkarədi fələyin yazısına düzəliş eləyə… Allah öz dinində rəhmət eləsin…

Dmitri Xvorostovski Londonda evlənmişdi, ingilis qızından iki uşağı qaldı… TV-də gördüm. Dmitrinin ata-anasına heç